*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 1* *ISSN 2663-4368*
*Səhifə: 320-325* *E-ISSN 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4368.2023.1.320*

# İrəvanda yaradılan azərbaycandilli ilk teatr – İrəvan Dövlət Azərbaycan Dram Teatrının dünəni və bu günü

**Gülxarə Əhmədova**
Filologiya üzrə fəlsəfə doktoru
Naxçıvan Dövlət Universiteti. Azərbaycan.
E-mail: gulxareehmedova1966@gmail.com

**Annotasiya.** Teatr insanlara maddi və mənəvi problemləri əks etdirməkdə kömək edən ən təsirli sənət növlərindən biridir. Yunanca "theatron", yəni "görmə yeri" sözündən yaranan teatr, ta qədim zamanlardan başlayaraq insanların həyatında böyük rola malik olmuş, ölkələrin siyasi konsepsiyalarının ayrılmaz hissəsinə çevrilmişdir. Afina Qərb teatrının əsasının qoyulduğu yerdir. Daha sonra mənbələrdən aydın olduğu kimi, Qərb teatrı romalılar tərəfindən təkmilləşdirilmiş və genişləndirilmişdir. Şekspir "teatr insanı insana bağlamaq, insanla insanca danışmaq sənətidir" deyərək, teatrın ən gözəl tərifini vermişdir. Uzun və şərəfli tarixi yol keçmiş Azərbaycan teatrının inkişafında son illər xüsusilə yaddaqalandır. Bu, teatr tarixində tam olaraq inkişafın yeni mərhələsidir. Şübhəsiz, teatrlarımızın yeni inkişaf yoluna çıxmasında ölkəmizə rəhbərliyinin bütün dövrlərində daim mədəniyyət və incəsənətin böyük hamisi olmuş Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin xidmətləri misilsizdir. Bu şanlı amal Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu gün də uğurla davam etdirilir. Bu dəstək təkcə Bakıda və regionlarda yaradılan teatrları deyil, eyni zamanda 90-cı illərdə Azərbaycan əraziləri mənfur ermənilər tərəfindən işğal edildikdən sonra həmin yerlərdən Bakıya köçürülən teatrları da öz çoxşaxəli inkişafına daxil edir. Qeyd edək ki, həmin illərdə paytaxtda 1 qaçqın, 3 məcburi köçkün teatrı fəaliyyətə başlamışdır. Beləliklə, İrəvan, Şuşa, Ağdam və Füzuli Dövlət Dram Teatrlarının bundan sonrakı taleyi Bakı ilə bağlanmışdır. Qeyd edək ki, Ermənistandan deportasiya olunduqdan sonra teatrın kollektivi Bakıda Akademik Milli Dram Teatrının nəzdində teatr-studiya kimi fəaliyyətini davam etdirmiş və Abşeron mədəniyyət sarayında yerləşdirilmişdir. 1995-ci ildən isə teatra yenidən dövlət statusu verilərək, indiki H.Sarabski adına Mədəniyyət Sarayında məskunlaşdırılmışdır.
**Açar sözlər:** İrəvan Dövlət Azərbaycan Dram Teatrı, Bakı, deportasiya, qaçqın, Azərbaycan, mədəniyyət, inkişaf

**Məqalə tarixçəsi:** göndərilib – 01.06.2023; qəbul edilib – 20.06.2023

# The first Azerbaijani theater founded in Irevan – past and present of Irevan State Azerbaijan Dramatic Theatre

**Gulkhare Ahmedova**
Doctor of Philosophy in Philology
Nakhchivan State University. Azerbaijan.
E-mail: gulxareehmedova1966@gmail.com

**Abstract.** Theater is one of the most effective forms of art helping people to reflect material and spiritual problems to people. The term theater has been derived from the Greek "theatron", which

means “a place of sight” has played a great role in people's lives since ancient times and has become an integral part of the political concepts of countries. Athens is the birthplace of Western theatre. As can be seen from the sources that Western theater was developed and expanded by the Romans. Shakespeare gave the best definition of theatre and said: “Theatre is the art of connecting of human to human and speaking humanly”. Recent years are especially memorable in the development of the Azerbaijani theater, which has a long and glorious history. This is a completely new stage of development in the history of theater. The national leader of the Azerbaijani people, Heydar Aliyev was a great protector of culture and art during his leadership in our country and made unparalleled contributions on a new path of theater development. This glorious mission is being successfully carried out today by the Victorious Commander-in-Chief, President of the Republic of Azerbaijan Ilham Aliyev. This support includes not only theaters established in Baku and the regions, but also theaters moved to Baku after the occupation of Azerbaijani territories by hated Armenians in the 90s. It should be noted that in those years, 1 refugee and 3 internally displaced persons (IDP) theaters started operating in the capital. Thus, the fate of Irevan, Shusha, Aghdam and Fuzuli State Drama Theaters was connected to Baku. It should be noted that after being deported of the collective of the theater from Armenia, they continued their activities as a theater-studio affiliated to the Academic National Drama Theater in Baku and was placed in the Absheron Palace of Culture. Since 1995, the theater was given state status again and it was inhabited in the present Palace of Culture named after H. Sarabski.

**Keywords:** Irevan State Azerbaijan Drama Theater, Baku, deportation, refugee, Azerbaijan, culture, development

**Article history:** received − 01.06.2023; accepted − 20.06.2023

## Giriş / *Introduction*

Uzun və şərəfli tarixi yol keçmiş Azərbaycan teatrının inkişafında son illər xüsusilə yaddaqalandır. Bu, inkişafın yeni mərhələsidir. İlk növbədə, bu gün ölkəmizdə teatrların maddi-texniki bazası müasir dünya standartlarına uyğun möhkəmləndirilmiş, kollektivin yaradıcılıq axtarışları yeni istiqamətdə davam edərək yeni maraqlı tamaşaların hazırlanmasında, nüfuzlu Qərb, o cümlədən Avropa teatrları ilə təcrübə proqramları genişləndirilmişdir. Şübhəsiz, teatrlarımızın yeni inkişaf yoluna çıxmasında ölkəmizə rəhbərliyinin bütün dövrlərində daim mədəniyyət və incəsənətin böyük hamisi kimi bu sahədə çalışanların sonsuz rəğbətini qazanmış Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin xidmətləri misilsizdir. Bu gün bu şanlı amal Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu dəstək təkcə Bakıda və regionlarda yaradılan teatrları əhatə etmir, eyni zamanda 90-cı illərdə Azərbaycan əraziləri mənfur ermənilər tərəfindən işğal edildikdən sonra həmin yerlərdən Bakıya köçürülən teatrları da öz çoxşaxəli inkişafına daxil edir. Qeyd edək ki, həmin illərdə paytaxtda 1 qaçqın, 3 məcburi köçkün teatrı fəaliyyətə başlamışdır. Beləliklə, İrəvan, Şuşa, Ağdam və Füzuli Dövlət Dram Teatrlarının bundan sonrakı taleyi Bakı ilə bağlanmışdır. Uzun illər bir neçə dəfə ünvanlarının dəyişməsi teatrların fəaliyyətini çətinləşdirsə də, onlar bu yolda davam etmək zərurəti hiss edir və daim öz üzərlərində çalışaraq mübarizələrinə davam edirdilər. Məqalədə həmin teatrlardan biri olan, Azərbaycan dilində İrəvanda yaradılan ilk teatr olan İrəvan Dövlət Azərbaycan Dram Teatrından bəhs olunub. Qeyd edək ki, Ermənistandan deportasiya olunduqdan sonra teatrın kollektivi Bakıda Akademik Milli Dram Teatrının nəzdində teatr-studiya kimi fəaliyyətini davam etdirmiş və Abşeron mədəniyyət sarayında yerləşdirilmişdir. 1995-ci ildən isə teatra yenidən dövlət statusu verilərək, indiki H.Sarabski adına Mədəniyyət Sarayında məskunlaşdırılmışdır.

**Əsas hissə / *Main Part***

“Teatrın tarixi müxtəlif mənbələrə istinadən 1882-ci ildən müəyyənləşdirilmişdir”, – deyən tarixçi-alim İsrafil Məmmədov öz araşdırmalarında bu haqda geniş şəkildə məlumat vermişdir. Alim yazır ki, İrəvanda Azərbaycan teatrının tarixi ən azı 1880-1881-ci illərdən başlayır. Bununla bağlı olaraq İrəvanda çıxan “Psak” (“Çələng”) qəzetinin 1882-ci il 10 aprel, 7-ci sayında “Fars teatrı” adlı geniş yazı dərc edib. Məqalədə deyilir ki, kasıb tələbələrə xeyriyyə məqsədilə İrəvan türklərindən ibarət teatr həvəskarları Vasaq Mədətov Nəzminin “Tamahkarlıq düşmən qazanır” tamaşasını 1881-ci ilin ikinci yarısında birinci dəfə, 1882-ci il aprelin 2-də ikinci dəfə oynamışlar”.

Vurğulayaq ki, 1880-1882-ci illərdə, yəni teatrın fəaliyyətinin ilk zamanlarında İrəvanda həvəskar aktyorlar tərəfindən tamaşalar təqdim olunurdu. “1886-cı ildə 23 yaşlı gimnaziya müəllimi Firidun bəy Köçərli İrəvanda teatr tamaşası təşkil edir. Həmin tamaşa – M.F.Axundovun “Müsyö Jordan və Dərviş Məstəli Şah“ komediyasının tamaşası İrəvan əhalisinin həyatında mədəni hadisəyə çevrilir. Lakin F.Köçərli 1895-ci ildə İrəvanı tərk edir. Bundan sonra teatra 18 yaşlı Yunis Nuri rəhbərlik etmişdir”.

“Firidun bəy Köçərli İrəvan Müəllimlər Seminariyasında çalışdığı müddətdə xalqın maariflənməsində, tərəqqisində böyük işlər görmüşdür. İrəvan teatrının əsaslı fəaliyyəti demək olar ki, Firidun bəy Köçərli ilə başlamışdır. 1886-cı ildə Firidun bəy Köçərli İrəvanda teatr tamaşası təşkil etmişdir. Həmin tamaşa – M.F.Axundovun “Müsyö Jordan və Dərviş Məstəli şah” komediyasının tamaşası İrəvan əhalisinin həyatında böyük mədəni hadisəyə çevrilmişdir. Folklor nümunələrini və İrəvan şairlərinin əsərlərini toplayan F.Köçərli “İrəvan şairləri” məqaləsində yazır: “Şəhri İrəvani keçmişdə mərkəzi – üləma, füzəla və şüəra olub, Axund Molla Məhəmməd İrəvanı kimi böyük alim və mücahidlər yetiribsə də, axır vaxtlarda belə fazil və alim şəxslərdən və dəqiq ədiblərdən və xoştəb şairlərdən məhrum qalıbdır...” [4, s.215]

“1896-cı ildən etibarən İrəvanda müntəzəm olaraq Azərbaycan dilində tamaşalar nümayiş etdirilmişdir. İnqilabdan əvvəlki illərdə həvəskarlar bölgədə bir çox tanınmış pyesləri səhnələşdirdilər. Erkən səhnələşdirilən pyeslər: “Dursunəli və Ballıbadı” (1893), “Qırt-Qırt” (1893), “Hacı Qara” (1894), “Evli ikən subay” (1899). Bu pyeslər kiçik məkanlarda səhnələşdirilmiş və mətbuat tərəfindən işıqlandırılmamışdı. 1909-cu ildə böyük sənətkar Hüseyn Ərəblinski “Bəxtsiz cavan” (Ə.Haqverdiyev), “Nadir şah” (N.Nərimanov) tamaşaları ilə İrəvan teatrında çıxış etmişdir. 1912-ci ildə isə Zülfüqar Hacıbəyovun rəhbərliyi ilə İrəvan teatrında “O olmasın, bu olsun”, “Əlli yaşında cavan”, “Kərbəlayi Şükür xalça satan” əsərləri oynanılır. “Arşın mal alan”, “Məşədi İbad” kimi məşhur tamaşalar teatrın daimi repertuarında idi” [2, s.57].

Daşnakların hücumları nəticəsində (1918-ci il) teatr rəhbərliyi və bir qrup aktyor İranın Xoy şəhərinə getmiş, 1922-ci ildə sovet hökuməti qurulduqdan sonra geriyə qayıdaraq əzmlə fəaliyyətlərinə davam etmişlər. Teatrın yenidən dirçəlməsi, inkişaf etməsi Bala Əfəndiyev, Əkbər Rzayev, Rza Şeyxzadə, Abbasəli Axundov, Zakir Şahbazov, Əşrəf Yusifzadə, Kazım Ziya, Nəsib Əfəndiyev və s. kimi milli mədəniyyət təəssübkeşlərinin adı ilə bağlıdır. Bala Əfəndiyevin xanımı Fatma Əfəndiyeva teatrda ilk qadın aktrisa kimi səhnəyə çıxmış və bütün Azərbaycan xanımları üçün nümunə olmuşdur. Eyni zamanda onu da qeyd edək ki, Fatma xanım həmin vaxtlar İrəvan türk qadınlar klubunun ilk müdiri idi. Sonralar Əkbər Rzayev də öz arvadı Firəngiz xanımı Fatma xanımla birgə səhnəyə çıxardı. Bala Əfəndiyev 1921-1928-ci illərdə İrəvanda partiya işçisi kimi məsul vəzifə daşıyırdı.

Bu da orada fəaliyyət üçün münbit şərait yaradırdı. 1928-ci il mart ayının 15-də Ermənistan hökumətinin qərarı ilə səyyar tipli İrəvan Dövlət Azərbaycan Dram Teatrı yaradıldı. Truppanın formalaşması qocaman aktyor Yunis Nuri və baş rejissor tərəfindən idarə olunurdu. Onlar Bakıdan bir neçə aktyor və aktrisanı da dəvət etdilər. Teatrın təntənəli açılışı aprel ayının 14-də reallaşdı. Daha sonralar “İrəvan teatrı 1929-cu ildə Cəfər Cabbarlının “Sevil” pyesini öz re-

pertuarına daxil etdi. 1931-ci ildə Üzeyir bəy Hacıbəylinin “Məşədi İbad” (22 yanvar), Sultanməcid Qənizadənin “Axşam səbri xeyir olar” (13 fevral) vodevili və Yucin O'Nilin Nuru Nuriyevin təbdilində “Qaraağaclar altında məhəbbət” (“Çinarlar altında məhəbbət” adı ilə. 16 noyabr), “Qızıl əkin” pyesi repertuara daxil edilib. Cəlil Məmmədquluzadənin “Ölülər” tragikomediyasının premyerası 1932-ci il fevral ayının 22-də baş tutdu, tamaşanın quruluşçu rejissorları Canan və Rza Şeyxzadə idi” [3].

1933-cü ildən etibarən tərcümə əsərlərindən – “Xatabala”, Məmmədəli Nasirin “Zorən izdivac”, Üzeyir bəy Hacıbəylinin “Arşın mal alan” əsərləri yeni quruluşda təqdim olundu. Siyasi-ideoloji məsələlərlə bağlı olaraq teatrda mədəni, bədii, tarixi gücü olmayan, zəif tamaşalar da repertuara daxil edilirdi. Bu isə teatra mənəvi zərbə idi. Bu səbəbdən teatr “İnci” və bu tipli ideoloji ruhlu tamaşaları bərpa etmək, oynamaq məcburiyyətində qalmışdı.

1934-cü ildən başlayaraq yeddi yeni tamaşa hazırlanmışdır, Yusif Yulduz Cəfər Cabbarlının “Almaz”, Baxşı Qələndərli Mirzə Fətəli Axundzadənin “Hacı Qara”, Üzeyir bəy Hacıbəylinin “Məşədi İbad”, Süleyman Sani Axundovun “Tamahkar”, Əbdürrəhim bəy Haqverdiyevin “Pəri cadu”, Məmmədbağır Qaraxanov və Əli Zeynalov Şirvanzadənin “Namus” əsərlərinə səhnə quruluşu veriblər.

“Teatr məcburiyyət qarşısında qalaraq rayon qastrolları üçün kiçikhəcmli tərcümə-təbdillərə üstünlük verirdi. Digər tərəfdən, teatrın bu əsərləri öz repertuarına daxil etməsi üçün Ermənistan hökuməti tərəfindən təzyiqlər göstərilirdi. Vodevil-məzhəkə və sentimental dram janrlı əsərlərin tamaşaları sənət ocağının yaradıcılıq iqliminə bulanıq ovqat gətirirdi. Digər tərəfdən isə, belə cəhdlər kollektivi mövzu yeknəsəkliyinə aparır, onu janr axtarışlarından uzaqlaşdırır və aktyorları yaradıcılıq çətinlikləri ilə üzləşdirirdi. Tərcümə-təbdil olunmuş birpərdəli “Qanlı vadi”, “Müqəddəs səadət”, “Son kəbin”, “Cəsur Nəsir” tamaşaları repertuara belə yol tapmışdı” [3].

1935-ci ildə “Ölülər” tamaşası İrəvan teatrının tarixində yaddaqalan hadisə oldu. İsfəndiyar Hüseynovun (Baxşı Qələndərlinin bədii rəhbərliyi ilə) quruluş verdiyi tamaşa (9 aprel) daha gözəl rəylər aldı. Həmin dövrdə İrəvanın məşhur erməni, rus və gürcü aktyorları əsl sensasiyaya çevrilmiş “Ölülər” tamaşasına, Dağıstanlı ilə Nurinin ecazkar səhnəsinə tamaşa etmək üçün bir-biri ilə yarışırdılar.

“14 aprel 1928-ci ildə Molyerin “Zorən təbib” pyesi səhnələşdirilir, həmin il teatr dövlət statusu alaraq fəaliyyətə başlayır. Teatrda Y.Nuri ilə yanaşı, Məmmədbağır Qaraxanov, Kazım Ziya, Qafar Həqqi, İsmayıl Dağıstanlı, Əli Zeynalov, Cəmil Əliyev kimi aktyorlar, Bəxşi Qələndərli, Əli Şahsabahlı kimi rejissorlar çalışmışlar. 1935-ci ildə teatra görkəmli dramaturq Cəfər Cabbarlının adı verilir. Dramaturqun “Aydın” pyesi həmin dövrdə teatrın səhnəsində uğurla oynanılırdı. 1948-ci ildən başlayaraq İrəvan və onun ətraf rayonlarında yaşayan azərbaycanlı əhalinin məcburi olaraq Azərbaycana köçürülmə prosesi teatra öz təsirini göstərdi və 1949-cu ildə teatr Göyçə mahalının Basarkeçər rayonuna köçürüldü. Oradakı birillik fəaliyyətindən sonra isə teatrın işi dayandırıldı və əvəzində həmin bazada xalq teatrı təşkil olundu” [5].

1967-ci ildə ziyalıların, Basarkeçər Rayon Partiya Komitəsinin birinci katibi Yunis Rzayevin və Azərbaycan KP MK-nın katibi Şıxəli Qurbanovun səyləri nəticəsində C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı hökumətin qərarı ilə yenidən yaradıldı (və ya bərpa olundu) və paytaxt İrəvan şəhərinə köçürüldü.

Deportasiyadan sonra ağır günlər davam etdi. Özünəgəlmə və fəaliyyət problemi baş qaldırdı. Mənəviyyat abidəsi olan teatra bu faciə ağır təsir etdi. 2012-ci ildə mütəmadi olaraq laçınlılarla əlaqə saxlayan teatr kollektivi növbəti mövsümdə ssenarist Hidayətin “Vətəndən ağırdı vətənin yükü...” tamaşası ilə köçkünlər qarşısında çıxış edərək, 20-ci yüzilliyin sonunda soydaşlarımızın Qərbi Azərbaycandan, indiki Ermənistan Respublikasından məcburən deportasiya edilməsinə həsr edilən tamaşanı təqdim etmişlər. “Xalq artisti Tamilla Abdullayevanın, Əməkdar artist Vaqif Kərimovun və digər gənc aktyorların iştirakı ilə səhnələşdirilmiş tamaşada zaman-zaman tarixi torpaqlarımızda məskunlaşan ermənilərin xalqımızın başına gətirdikləri ağlasığmaz müsibətlər öz əksini tapmışdır” [8].

"Prezident İlham Əliyevin 30 avqust 2006-cı ildə İrəvan Azərbaycan Dram Teatrının 125 illik yubileyinin, 29 dekabr 2006-cı ildə İrəvan mahalı Uluxanlı məktəbinin 125 illik yubileyinin keçirilməsi haqqında sərəncamları, milli-mənəvi dəyərlərimizin inkişafında mühüm əhəmiyyət kəsb etməkdədir" [1].

1989-cu ildən bəri teatr truppası Bakıda, Azərbaycan Dram Teatrının teatr studiyasında fəaliyyətini davam etdirir. 1994-cü ildə teatra yenidən dövlət statusu verildi. 16 oktyabr 2007-ci ildə Prezidentin Sərəncamı ilə teatrın yubileyi Bakıdakı Azərbaycan Dövlət Musiqili Komediya Teatrında qeyd olundu. Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Teatrının yaradıcı kollektivi tərəfindən Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə səhnələşdirilən "Nurlu ömrün anları" tamaşası hazırda Azərbaycanın bir çox regionlarında maraqla qarşılanır.

2023-cü il tarixində Zaqatala rayon Mədəniyyət Mərkəzində, Yevlax şəhər Mədəniyyət Mərkəzinin filialı – şəhər Yaradıcılıq evində, Mingəçevir Dövlət Dram Teatrında, Tərtər Rayon Mədəniyyət Mərkəzinin səhnəsində Kürdəmir Regional Mədəniyyət İdarəsi, Beyləqan rayon Nümayəndəliyinin tabeliyində fəaliyyət göstərən Mədəniyyət Mərkəzinin tədbirlər zalında, Ucarda, İmişlidə və s. kimi yerlərdə şair-dramaturq İftixarın "Nurlu ömrün anları" tamaşası rayon ictimaiyyətinə təqdim olunub.

Tamaşanın quruluşçu rejissoru, rəssamı və musiqi tərtibatçısı İftixar Piriyevdir. Tamaşada Əməkdar artist Esmiralda Şahbazova, aktyorlardan Niyaməddin Səfərəliyev, Natiq Həziyev, Sevinc Hüseynova, Bəhruz Cabbarzadə, Arzuman Tarverdi, Güney Əliyeva, Pərvin Dadaşova, Xədicə Məmmədova, Sevinc Bəxtiyar və Zəki Fətəliyev iştirak ediblər. Aktyorlar dahi rəhbərin ömrünün yaddaqalan anlarını tamaşaçılara poetik ifadələrlə çatdırıblar. Onların çıxışları alqışlarla qarşılanıb.

## Nəticə / *Conclusion*

Teatr xarici qastrollara da davam edir. Əməkdar mədəniyyət işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru İftixar Piriyevin dahi Azərbaycan şairi Nizami Gəncəvinin həyat və yaradıcılığını təcəssüm etdirən "Könüllər mülkünün Sultanı – Şeyx Nizami Gəncəvi" tarixi dramı Özbəkistan Respublikasının ən qədim şəhərlərindən olan Səmərqəndin Vilayət Musiqili Dram Teatrının səhnəsində Azərbaycanın Əməkdar artisti Sərvər Əliyevin quruluşunda tamaşaya qoyulub" [6].

## Ədəbiyyat / *References*


1. İlham Əliyev. "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi haqqında" Sərəncam. Bakı şəhəri, 29 dekabr 2021-ci il /https: //president.az/az/articles/view/55116
2. Bilal Ərdoğan. İrəvan musiqi mühiti. https://ndu.edu.az/wp-content/uploads/Konfrans/irevan%20konfrans.pdf
3. Əzizoğlu, İ. İrəvan Dövlət Azərbaycan Teatrı: 1882-1927-ci illərdə – Teatr–135: https://525.az/news/74967-irevan-dovlet-azerbaycan-teatri-1882-1927-ci-illerde-teatr-135
4. Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı. İki cilddə, I cild, II cild. Bakı: Avrasiya, 2005.
5. "Tragedies of 1948-1953 and 1988-1991 years" (ing.). Azerbaijani Vision. 7 dekabr 2016.
6. https://azertag.az/xeber/Nizami_Genceviye_hesr_olunmus_tamasa_Ozbekistan_sehnesinde-2524163.
7. https://az.wikipedia.org/wiki/%C4%B0r%C9%99van_D%C3%B6vl%C9%99t_Az%C9%99rbaycan_Dram_Teatr%C4%B1
8. http://www.lachin-ih.gov.az/az/news/57.html

# Первый азербайджанский театр в Иреване – Иреванский Государственный Азербайджанский Драматический театр – вчера и сегодня

**Гюльхаре Ахмедова**
Доктор философии по филологии
Нахчыванский государственный университет. Азербайджан.
E-mail: gulxareehmedova1966@gmail.com

**Резюме.** Театр – это один из самых важных видов искусства, который, отражая материальные и нравственные проблемы, помогает людям. Театр (от греч. "theatron", т.е. "место смотра") с древних времён играл большую роль в жизни людей, превратившись в неотъемлемую часть политических концепций стран. Основа театра Запада создана в Афинах. Затем, как известно из источников, западный театр был усовершенствован и расширен римлянами. Шекспир дал такое определение театру: "Театр это искусство, сближающее человека с человеком, помогающее людям общаться друг с другом".
В развитии азербайджанского театра, прошедшего долгий и почётный исторический путь, особо памятны последние годы. Они являют собой совершенно новый этап в истории развития театра. Безусловно, в выходе наших театров на новый путь развития на разных этапах неоценимы заслуги общенационального лидера нашего народа Гейдара Алиева. Эта славная деятельность и сегодня успешно продолжается благодаря Президенту Азербайджанской Республики, победоносному главнокомандующему Ильхаму Алиеву. Эта поддержка включает всестороннее развитие не только театров Баку и регионов, но и театров, вынужденно переселившихся в Баку из оккупированных вероломными армянами в 90-е годы территорий Азербайджана. Надо отметить, что в те годы в столице начал действовать 1 театр беженцев и 3 театра вынужденно переселённых. Таким образом дальнейшая судьба Государственных Драматических театров Иревана, Шуши, Агдама и Физули была связана с Баку. Надо сказать, что после депортации из Армении коллектив театра продолжал деятельность в качестве театра-студии при Бакинском Академическом Национальном Драматическом театре и размещался в Апшеронском Дворце культуры. А с 1995 года театр снова получил статус Государственного и был размещён в Доме культуры имени Г.Сарабского.
**Ключевые слова:** Иреванский Государственный Азербайджанский Драматический театр, Баку, депортация, беженцы, Азербайджан, культура, развитие, сегодня, вчера